# Naftalanda təhsilə qayğı öz bəhrəsini verir

Şəhər və rayonlar üzrə respublikanın bütün orta ümumtəhsil müəssisələrində keçirilmiş buraxılış imtahanlarının nəticələrinə əsasən, Naftalan şəhəri birinci yeri tutmuşdur.



Möcüzəli Naftalan kurort şəhərində bütün sahələrdə aparılan sürətli və innovativ inkişaf, sözün əsl mənasında şəhərin simasına, insanların həyat tərzinə, mədəniyyətinə, təhsilinə böyük təsir etmişdir. Bəli, bu gün Naftalan ən parlaq, yenilikləri ilə zəngin olan bir dövrünü yaşayır. Burada yenidənqurma işləri ilə yanaşı, təhsilin də inkişafına xüsusi diqqət yetirilir. Şəhərin və onun tabeliyində olan kənd tam orta məktəblər əsaslı təmir olunaraq maddi-texniki bazası gücləndirilmiş, qış mövsümündə məktəblər fasiləsiz olaraq istiliklə təmin edilmişdir. Naftalan Şəhər Təhsil Şöbəsi, eləcə də ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri Azərbaycan Respublikasında təhsil sahəsində İslahat proqramlarının, “Təhsil haqqında Azərbaycan Respublikası Qanunu”nun və ölkə Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə imzalanmış “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda qarşıya qoyduğu mühüm vəzifələrin yerinə yetirilməsinə səylə çalışmaqdadır.

Şəhər icra hakimiyyəti tərəfindən məktəblərdə şagirdlərə vətənpərvərlik tərbiyəsinin aşılanmasına, asudə vaxtlarının səmərəli keçirilməsinə, davamiyyətə və dərs prosesinin yüksək səviyyədə keçirilməsinə çox diqqətlə yanaşılır.

Bütün bunların nəticəsidir ki, şəhər və rayonlar üzrə respublikanın bütün orta ümumtəhsil müəssisələrində keçirilmiş buraxılış imtahanlarının nəticələrinə əsasən, Naftalan şəhəri birinci yeri tutmuşdur.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

